BRITISH COUNCIL

Yaradıcı iqtisadiyyatın dəstəklənməsi: Tənzimləyici qurumlar üçün proqram

# Tez-tez verilən suallar

Fevral 2022-ci il

# Yaradıcı iqtisadiyyatın dəstəklənməsi: tənzimləyici qurumlar üçün proqram

## Tez-tez verilən suallar

1. Proqram nə haqqındadır?

Yaradıcı iqtisadiyyatın dəstəklənməsi: tənzimləyici qurumlar üçün proqram Geniş Avropa regionunda yerli, regional və mərkəzi hökumət orqanlarında işləyən siyasətçilər üçün müstəqil təlim metodlarına əsaslanan onlayn kursdur. O, dövlət qulluqçularının yaradıcı iqtisadiyyat haqqında biliklərinə əsaslanacaq, onlara bu sahədə siyasət hazırlaması üçün məlumatlar, tematik araşdırmaq və praktiki biliklər verəcək. Proqram siyasətçilərə şəhər/region/ölkələrində yaradıcılıq və mədəniyyət sahələrini dəstəkləmək üçün yeni ideya və alətlər verəcək, habelə onların Birləşmiş Krallıqla əlaqələrini və qlobal peşəkar şəbəkələrini genişləndirməyə xidmət edəcək.

2. Proqram kimlər üçün nəzərdə tutulub?

Kurs yerli, regional və milli dövlət orqanlarında çalışan dövlət qulluqçuları üçün nəzərdə tutulub və bu şəxslər müvafiq Nazirliklər vasitəsilə British Council tərəfindən kursa dəvət ediləcək.

3. Proqramın qiyməti nə qədərdir?

Kurs British Council tərəfindən maliyyələşdirilir və iştirakçılar üçün ödənişsiz olacaq.

4. Kursda neçə nəfər iştirak edə bilər?

Proqramın birinci qrupunda Ukrayna, Qərbi Balkanlar, Mərkəzi Asiya, Cənubi Qafqaz və Türkiyədə müxtəlif dövlət qurumlarında çalışan 250-300 dövlət qulluqçusu iştirak edəcək.

5. Mən proqramda necə iştirak edə bilərəm?

Proqramda yalnız dəvət əsasında iştirak etmək mümkündür və biz müxtəlif dövlət qurumlarında çalışan dövlət qulluqçularını işlədikləri müəssisə vasitəsilə dəvət edirik.

6. Proqramda nə öyrənəcəyəm?

Proqramın planlaşdırılması zamanı dövlət qulluqçuları və siyasətçilərin biliklərindən fəaliyyət göstərdikləri şəhər/region/ölkədə mədəniyyət və yaradıcılıq sahələrini dəstəkləyən siyasətlərin hazırlanması üçün istifadə etmək məqsədilə yaradıcı iqtisadiyyat haqqında daha geniş biliklər və anlayış əldə etmək istədiyini aşkar etmişik. Proqram bu tələbə cavab

verəcək və iştirakçıların mədəniyyət və yaradıcılıq sahələrinin onların fəaliyyət göstərdikləri sahəyə göstərə biləcəyi təsirlə bağlı kvalifikasiyasını artıracaq.

Kursun əhatə edəcəyi əsas mövzulara daxildir: yaradıcılıq sektorunun digər sektorlarla sinerjisi, məlumatların toplanması və ölçülməsi, işçi qüvvəsinin yeni bacarıqları və müəssisələrin inkişafı, biznes modelləri, yaradıcı qovşaqlar və şəbəkələr, əqli mülkiyyət, müdafiə və lobbiçilik, mədəni müxtəliflik və auditoriyanın inkişafı, yaradıcılıq milli brend və ya rəqabət üstünlüyü kimi.

Kurs praktiki və məlumatlandırıcı xarakter daşıyacaq və iştirakçılara yeni biliklərini işlərində tətbiq etmək üçün təlimat və ideyalar verəcək.

7. Proqramı tamamlamaq üçün nə qədər vaxt sərf etmək lazımdır?

Proqram 7 mart tarixindən 15 may 2022-ci ilədək 10 həftə ərzində onlayn formatda keçiriləcək və iştirakçıların şəbəkələr yaratması və ideya mübadiləsi ilə məşğul olması üçün üç canlı sessiya ilə tamamlanacaq. Hər bir modulun, o cümlədən əsas məzmun və təlim fəaliyyətlərinin tamamlanması 2 saatadək vaxt tələb edəcək.

Bütün proqramı tamamlamış iştirakçılar British Council və Cultural Associates Oxford-dan kursun tamamlanması haqqında sertifikat alacaq.

8. İştirak etmək üçün yüksək səviyyəli ingilis dili biliklərim olmalıdır?

Biz iştirakçıların peşəkar ingilis dili biliklərinə sahib olmasını tələb edirik. Kursun bütün materialları ingilis dilində təqdim ediləcək və videolar altyazılarla təmin ediləcək.

Təəssüf ki, proqramı bu dəfə yerli dillərdə təklif edə bilmirik. Bununla belə, birinci qrupun uğurundan və alınmış rəylərdən asılı olaraq proqramı Geniş Avropa regionunun geniş istifadə edilən dillərinə tərcümə etməyi nəzərdə tutmuşuq.

9. Kursa necə çıxış əldə edə bilərəm?

Kurs Rise.com adlı təlimin idarəedilməsi sistemi vasitəsilə keçiriləcək. Bu, sadə və universal veb-proqramdır. İştirakçılar 2022-ci ilin mart ayının əvvəlində kursa necə çıxış əldə etmələri haqqında elektron məktub alacaqlar.

10. İrəliləyişi necə izləyəcəksiniz?

Onlayn təlimin idarəedilməsi sistemi Rise.com sizin məzmunu anlamağınıza və irəliləyişinizi izləməyinizə kömək edəcək. Sizin modulları tamamlamaq üçün həftədə iki saat vaxt sərf etməyiniz lazımdır. Qrafiklə bağlı daha ətraflı məlumat qeydiyyatdan keçmiş iştirakçılara veriləcək. Siz işinizi planlaşdırmaq üçün kursun qrafikini kursun alətlər panelində izləyə biləcəksiniz.

11. Təlim platformasına çıxış əldə edə bilmirəmsə, yaxud bununla bağlı problem yaşayıramsa, nə etməliyəm?

Bütün iştirakçılar arts.info@britishcouncil.org poçt ünvanı vasitəsilə müştəri xidmətləri komandamızla əlaqə saxlaya bilər. Komanda iştirakçıların proqram çərçivəsində qarşılaşdığı bütün texniki və kursla bağlı sorğularını həll edəcək. Ümid edirik hər hansı texniki problemləri ən qısa zamanda həll edə biləcəyik.

İştirakçılar kursa və onun bütün məzmununa şəxsi kompüter, noutbuk, planşet və mobil cihazlar vasitəsilə çıxış əldə edə biləcək.

12. Hansı növ məzmun təmin ediləcək?

Kursun məzmunu müxtəlif videolar, podkastlar, hesabatlar və sənədləri əhatə edəcək. İştirakçıların müxtəlif formatlı məzmunu izləməsi, dinləməsi və ya oxuması, habelə bəzi sadə tapşırıqları yerinə yetirməsi tələb olunacaq. Arzu etdiyiniz halda məzmunu daha dərindən öyrənə və daha çətin tapşırıqları yerinə yetirə bilərsiniz.